UOT-811.512.162
Səhifə: 46-50
https://doi.org/10.59849/2663-8967.2026.2.46

Natəvan Hüseynova
AMEA Nəsimi adına Dilçilik İnstitutu
filologiya üzrə fəlsəfə doktoru, dosent
natavan.huseynova1020@gmail.com

AZƏRBAYCAN DİLİNDƏ ELEKTRON TİBBİ TERMİNOLOGİYANIN FORMALAŞMASI

XÜLASƏ

Məqalədə informasiya-kommunikasiya texnologiyalarının səhiyyə sahəsinə tətbiqi nəticəsində formalaşan terminoloji sistemin inkişaf xüsusiyyətləri araşdırılır. Səhiyyənin informasiyalaşdırılması və rəqəmsal transformasiyası prosesində meydana çıxan "teletibb", "elektron səhiyyə" və "elektron tibb" terminlərinin məzmunu, formalaşma mərhələləri və qarşılıqlı əlaqəsi təhlil edilir. Teletibb anlayışının ilkin olaraq məsafədən tibbi konsultasiya və diaqnostika ilə əlaqələndirilməsi, sonrakı mərhələlərdə isə informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə funksional və məzmun baxımından genişlənməsi nəzərdən keçirilir. Məqalədə Azərbaycan dilində elektron səhiyyə və elektron tiblə bağlı terminoloji bazanın mövcud vəziyyəti, terminlərin sistemləşdirilməsi və standartlaşdırılması zərurəti də araşdırılır. Tədqiqatın nəticələri göstərir ki, səhiyyədə informasiya-kommunikasiya texnologiyalarının davamlı inkişafı bu sahənin terminoloji sisteminin dinamik xarakter daşımasına və yeni terminoloji vahidlərlə zənginləşməsinə səbəb olur.

***Açar sözlər*:** informasiya-kommunikasiya texnologiyaları, səhiyyə, teletibb, elektron səhiyyə, elektron tibb, terminologiya.

Giriş: Müasir informasiya cəmiyyətinin formalaşması və davamlı inkişafı informasiya texnologiyalarının ictimai həyatın bütün əsas sahələrinə nüfuz etməsi ilə səciyyələnir. Hazırkı mərhələdə informasiya texnologiyaları yalnız texniki vasitə kimi deyil, həm də müxtəlif fəaliyyət istiqamətlərinin səmərəliliyini, operativliyini və informasiya təminatını şərtləndirən mühüm amil kimi çıxış edir. İstehsal, təhsil, səhiyyə, ticarət, nəqliyyat, idarəetmə, elm və digər sahələrdə informasiya resurslarının toplanması, emalı, saxlanması, ötürülməsi və mübadiləsi prosesləri müasir texnoloji vasitələrin tətbiqi ilə həyata keçirilir.

İnformasiyalaşdırma prosesinin təsir göstərdiyi mühüm sahələrdən biri də səhiyyədir. Sosial xidmət sisteminin əsas istiqamətlərindən biri olan səhiyyənin rəqəmsal transformasiyası tibbi informasiyanın böyük həcmdə və operativ şəkildə toplanması, emalı, sistemləşdirilməsi, saxlanması və müxtəlif istifadəçilər arasında ötürülməsi zərurətindən irəli gəlir. Müasir səhiyyə sistemində informasiya-kommunikasiya texnologiyalarından yalnız inzibati və idarəetmə məqsədləri üçün deyil, eyni zamanda diaqnostika, müalicə, profilaktika, tibbi monitorinq, reabilitasiya, elmi tədqiqat və tibbi təhsil proseslərində də geniş istifadə olunur.

Səhiyyənin informasiyalaşdırılması nəticəsində elektron tibbi məlumat bazaları, elektron tibbi sənədləşmə, tibbi informasiya sistemləri, teletibb, məsafədən diaqnostika və konsultasiya, rəqəmsal görüntüləmə sistemləri və digər texnoloji istiqamətlər inkişaf etmişdir. Bu proses, öz növbəsində, tibbi fəaliyyətin müxtəlif sahələrində yeni anlayışların və onları ifadə edən terminlərin meydana gəlməsini şərtləndirmişdir. Xüsusilə elektron səhiyyə, tibbi informatika və tibbi elektronika sahələrinin inkişafı ilə əlaqədar olaraq texniki, informasiya və tibbi terminologiyanın qarşılıqlı əlaqəsi daha da güclənmişdir.

İnformasiya-kommunikasiya texnologiyalarının ilkin inkişaf mərhələlərində onların tibbi və digər fəaliyyət sahələrində tətbiqi, ilk növbədə, radio, telefon, teleqraf, teleks və televiziya kimi kommunikasiya vasitələrinin istifadəsi ilə bağlı olmuşdur. Bu texnoloji vasitələrin praktik fəaliyyətə daxil edilməsi yalnız informasiya mübadiləsinin xarakterini dəyişdirməmiş, eyni zamanda yeni anlayışların yaranmasına və həmin anlayışları ifadə edən terminoloji vahidlərin formalaşmasına da zəmin yaratmışdır. Bir qayda olaraq, yeni texnologiyaların tətbiqindən qısa müddət sonra onların funksional xüsusiyyətlərini və istifadə sahələrini ifadə edən terminlər elmi ədəbiyyatda işlənməyə başlamışdır.

XX əsrin 70-ci illərindən etibarən tibbi xidmətlərin məsafədən göstərilməsi və konsultativ yardımın kommunikasiya vasitələri ilə həyata keçirilməsi yeni terminoloji vahidlərin formalaşmasına səbəb olmuşdur. Məhz bu dövrdə məsafədən konsultativ tibbi yardımı ifadə etmək məqsədilə **"**teletibb" ("telemedicine") termini elmi istifadəyə daxil edilmişdir. Sonrakı mərhələdə həmin termin əsasında *"teletibb xidməti"*, *"teletibb sistemi"* kimi terminoloji birləşmələr yaranmışdır. Bu terminlərin meydana çıxması tibbi xidmətlərin informasiya və kommunikasiya texnologiyaları vasitəsilə məsafədən həyata keçirilməsi ilə bağlı yeni anlayışların terminoloji sistemdə təsbit olunmasının göstəricisi kimi qiymətləndirilə bilər. İki onillik ərzində bu termin tibdə İKT-nin tətbiqinin, demək olar ki, bütün növlərini ifadə etmək üçün geniş şəkildə işlədilmişdir. İKT-nin tətbiqi əsasən konsultativ tibbi yardım və məsafədən diaqnostika ilə məhdudlaşdığı dövrdə termin kifayət qədər adekvat hesab olunurdu. Bununla yanaşı, ixtisaslaşmış istiqamətləri ifadə etmək üçün onu dəqiqləşdirən anlayışlardan da istifadə edilirdi. Məsələn, *telekardiologiya, teleradiologiya, telepatologiya, teledermatologiya* və s. [3, s. 6].

İnternet texnologiyalarının sürətli inkişafı, xüsusilə elektron poçt, internet şəbəkə xidməti və sonrakı mərhələdə videokonfrans rabitəsinin geniş tətbiq olunması teletibbin funksional imkanlarının əhəmiyyətli dərəcədə genişlənməsinə səbəb olmuşdur. Əgər ilkin mərhələdə teletibb əsasən məsafədən tibbi konsultasiya və diaqnostik xidmətlərin göstərilməsi ilə məhdudlaşırdısa, yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqi onun fəaliyyət dairəsini daha da genişləndirmişdir. Beləliklə, İKT vasitəsilə yalnız tibbi konsultasiyaların həyata keçirilməsi deyil, həm də tibbi təhsil, səhiyyənin idarə olunması, elmi tədqiqatların aparılması, tibbi məlumatların mübadiləsi və digər istiqamətlər üzrə məsafədən fəaliyyət göstərmək imkanları yaranmışdır.

Bu texnoloji və funksional dəyişikliklər *teletibb* anlayışının məzmununa da təsir göstərmişdir. XX əsrin 90-cı illərinin ortalarından etibarən xarici elmi ədəbiyyatda teletibbə dair müxtəlif tərifl ərin meydana çıxması məhz bu proseslə əlaqələndirilir. Həmin tərifl ərdə teletibbin yalnız məsafədən tibbi yardım göstərilməsi vasitəsi kimi deyil, İKT-nin səhiyyə sahəsində getdikcə genişlənən tətbiq imkanlarını özündə birləşdirən çoxkomponentli fəaliyyət istiqaməti kimi izah olunmasına meyl müşahidə edilmişdir.

XX əsrin 90-cı illərində informasiya-kommunikasiya texnologiyalarının səhiyyə sahəsində tətbiq dairəsinin əhəmiyyətli dərəcədə genişlənməsi bu sahədə mövcud terminoloji sistemin dəqiqləşdirilməsini və ayrı-ayrı anlayışların daha sistemli şəkildə fərqləndirilməsini zəruri etmişdir. Bu istiqamətdə mühüm addımlardan biri 1997-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən atılmışdır. ÜST səhiyyədə İKT-nin müxtəlif tətbiq istiqamətlərini ifadə edən anlayışların sistemləşdirilməsi məqsədilə terminoloji yanaşma irəli sürmüş və həmin tətbiqləri daha geniş məzmun daşıyan *"tibbi telematika"* anlayışı ətrafında birləşdirmişdir. "*Tibbi telematika*" termini informasiya-kommunikasiya texnologiyalarından səhiyyə sahəsində istifadə ilə bağlı müxtəlif fəaliyyət, xidmət və sistemləri ümumiləşdirən anlayış kimi çıxış etmişdir. Bu terminoloji yanaşmanın formalaşması teletibbin ilkin olaraq yalnız məsafədən tibbi konsultasiya və diaqnostika ilə əlaqələndirilən məzmununun tədricən genişlənərək təhsil, idarəetmə, epidemioloji nəzarət, elmi tədqiqat və digər istiqamətləri də əhatə etməsi ilə bağlı olmuşdur.

Yerli elmi ədəbiyyatda və normativ-sənəd bazasında teletibb anlayışının formalaşması və işlənməsi də informasiya-kommunikasiya texnologiyalarının səhiyyə sahəsinə tətbiqinin inkişaf dinamikası ilə sıx bağlı olmuşdur. XX əsrin sonlarınadək bu mənbələrdə *"teletibb"* termini, əsasən, geniş məzmunda işlədilərək tibbi fəaliyyətin müxtəlif istiqamətlərində informasiya-kommunikasiya texnologiyalarından istifadəni ifadə etmişdir. Başqa sözlə, termin yalnız

məsafədən tibbi konsultasiya və diaqnostika ilə məhdudlaşdırılmamış, səhiyyədə İKT-nin tətbiq olunduğu bir sıra digər fəaliyyət sahələrini də əhatə etmişdir.

Belə geniş terminoloji yanaşma həmin dövrdə elektron səhiyyə anlayışının müasir məzmununun hələ tam şəkildə formalaşmaması və İKT-nin səhiyyədə tətbiq istiqamətlərinin sürətlə genişlənməsi ilə əlaqələndirilə bilər. Nəticədə "teletibb" termini müəyyən müddət ərzində səhiyyənin informasiyalaşdırılması ilə bağlı müxtəlif proses və xidmətləri ümumiləşdirən funksional anlayış kimi çıxış etmişdir. Sonrakı mərhələdə elektron səhiyyə anlayışının terminoloji sistemdə möhkəmlənməsi ilə teletibbin məzmun dairəsi də tədricən dəqiqləşmiş və onun digər elektron səhiyyə istiqamətləri ilə münasibəti daha aydın şəkildə müəyyənləşdirilmişdir.

"Uyğun milli teletibb sistemlərinin yaradılması, onların gələcək inkişafı və istifadəsində MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlığı haqqında Saziş"də *teletibb* termini aşağıdakı kimi izah olunur: *teletibb* - pasiyentə və ya bilavasitə pasiyenti müayinə və ya müalicə edən həkimə milli standartlara zidd olmayan informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə, digər həkimin distant məsləhətini almaq imkanı verən, distant tibbi məsləhətləşmə xidmətinin həyata keçirilməsini təmin edən təşkilati, maliyyə və texnoloji tədbirlər kompleksi [4].

Bu Sazişdə teletibb ilə bağlı digər terminlərə verilmiş tərifl ər də aşağıdakı kimi müəyyənləşdirilir:

teletibb xidmətləri – qeyri-təcili distant tibbi məsləhətlər, real zamanda məsləhətlər, pasiyentin orqanizminin fizioloji parametrlərinə nəzarət, diaqnostik və müalicə manipulyasiyalarının aparılması, pasiyentin müayinə nəticələrinin mübadiləsi, digər tibbi xidmətlər, həmçinin informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə həyata keçirilən tibbi videokonfranslar, telekonsiliumlar, teleseminarlar, telemühazirələr;

uyğun milli teletibb sistemi - teletibb sahəsində beynəlxalq standartlardan istifadə əsasında digər dövlətlərin milli teletibb sistemləri ilə effektiv qarşılıqlı fəaliyyəti təmin edən teletibb xidmətlərinin göstərilməsi üzrə milli sistem [4].

Müasir mərhələdə teletibb səhiyyənin müxtəlif diaqnostik istiqamətlərini, o cümlədən funksional, şüa, morfoloji və laborator diaqnostika sahələrini, eləcə də klinik tibbin əksər istiqamətlərini əhatə edən kompleks fəaliyyət sahəsinə çevrilmişdir. Teletibbin imkanlarının genişlənməsi onun texnoloji bazasının davamlı şəkildə yenilənməsi və yeni informasiya-kommunikasiya texnologiyalarının səhiyyə praktikasına inteqrasiyası ilə bilavasitə bağlıdır. Əvvəlki mərhələlərdə əsasən elektron poçt, WWW xidməti və videokonfrans rabitəsi kimi vasitələrdən istifadə edilirdisə, son illərdə bu texnologiyaların sırasına videomüşahidə, veb-yayım, məsafədən verilənlər bazalarının formalaşdırılması, uzaq iş masası texnologiyası və digər rəqəmsal həllər əlavə olunmuşdur.

Son onilliklər ərzində informasiya-kommunikasiya texnologiyalarının səhiyyə sisteminə inteqrasiyası bu sahə ilə bağlı terminoloji sistemin də əhəmiyyətli dərəcədə inkişafına və genişlənməsinə səbəb olmuşdur. Texnoloji imkanların artması, yeni xidmət və tətbiq istiqamətlərinin meydana çıxması nəticəsində səhiyyədə İKT-nin müxtəlif aspektlərini ifadə edən yeni termin və terminoloji birləşmələr formalaşmışdır. Müasir mərhələdə bu terminoloji sistemdə daha geniş məna tutumuna malik anlayışlardan biri "*elektron səhiyyə*" terminidir. "*Elektron səhiyyə*" anlayışı İKT-nin yalnız klinik tibbdə deyil, həm də tibbi təhsil, səhiyyənin idarə edilməsi və təşkili, sanitariya-epidemioloji nəzarət, elmi-tədqiqat fəaliyyəti, əhalinin məlumatlandırılması, profilaktika və reabilitasiya kimi müxtəlif istiqamətlərdə tətbiqini əhatə edir.

"*Elektron səhiyyə*" anlayışı ilə yanaşı, onun ayrı-ayrı tətbiq sahələrini ifadə edən daha spesifik terminlər də formalaşmışdır. Bu baxımdan, klinik və tibbi fəaliyyətin informasiya-kommunikasiya texnologiyaları vasitəsilə həyata keçirilməsi ilə bağlı prosesləri ifadə edən "*elektron tibb*" termini xüsusi əhəmiyyət daşıyır. Bu anlayış, əsasən, tibbi xidmətin göstərilməsi, tibbi məlumatların toplanması, emalı, saxlanması və mübadiləsi, eləcə də tibbi qərarların qəbulunun informasiya texnologiyaları vasitəsilə dəstəklənməsi kimi istiqamətləri əhatə edir. "Fərz olunur ki, e-tibb və e-səhiyyə terminləri ilk dəfə tədqiqatçılar və alimlər tərəfindən deyil, İKT sahəsində çalışan menecerlər və marketoloqlar tərəfindən istifadə olunmuş və elektron-

ticarət, elektron-biznes, elektron-həllərə bənzər söz kimi yaranmışdır. Eyni zamanda, bu termin İnternetin səhiyyədə açdığı yeni imkanların geniş istifadəçi kütləsinə çatdırılmasında reklam cəhdi kimi qiymətləndirilə bilər" [2, s.44].

"Elektron tibb" anlayışının məzmununun müəyyənləşdirilməsi ilə yanaşı, bu sahəyə aid terminlərin vahid və sistemli şəkildə işlənməsi də mühüm məsələlərdən biridir. Xüsusilə elektron səhiyyə və elektron tibbin sürətli inkişafı yeni terminlərin yaranmasına və beynəlxalq terminlərin Azərbaycan dilinə uyğunlaşdırılmasına ehtiyac yaratmışdır. Bu baxımdan, Azərbaycanda elektron səhiyyə və elektron tiblə bağlı terminoloji bazanın mövcud vəziyyəti, terminlərin sistemləşdirilməsi və onların standartlaşdırılması məsələləri də diqqət tələb edir. "Azərbaycanda elektron səhiyyə, elektron tiblə bağlı terminlər sistemi tam formalaşmayıb, bu sahədə terminlərin toplanması və sistemləşdirilməsi və lüğət şəklində təqdim edilməsi zəruridir. Eyni zamanda, elektron tiblə bağlı terminlər və onların beynəlxalq terminlərlə qarşılığının razılaşdırılması və qəbul edilməsi üçün milli standartlar işlənilməlidir" [1, s.116].

Müasir mərhələdə informasiya-kommunikasiya texnologiyalarının səhiyyə sahəsində tətbiqi ilə bağlı geniş və sistemli anlayışlar kompleksi formalaşmışdır. Bu anlayışlar sistemi səhiyyənin rəqəmsallaşması prosesində meydana çıxan müxtəlif obyekt, hadisə, fəaliyyət və texnoloji proseslərin vahid terminoloji müstəvidə ifadə olunmasına imkan verir. Terminoloji sistemə daxil olan vahidlər həm tibbi fəaliyyətin ənənəvi istiqamətlərini, həm də İKT-nin tətbiqi nəticəsində yaranmış yeni xidmət və texnologiyaları əhatə edir.

Nəticə: İnformasiya texnologiyalarının sürətli və fasiləsiz inkişafı, yeni rəqəmsal xidmətlərin və texnoloji həllərin meydana çıxması, eləcə də elektron səhiyyənin hüquqi və normativ bazasının təkmilləşdirilməsi bu sahənin terminoloji sisteminin də daim yenilənməsini şərtləndirir. Bu baxımdan, səhiyyədə İKT ilə bağlı terminologiya statik deyil, elmi-texniki tərəqqinin və praktik tələbatların təsiri ilə davamlı şəkildə dəyişən, yeni termin və terminoloji birləşmələrlə zənginləşən dinamik sistem kimi səciyyələndirilə bilər.

Ədəbiyyat siyahısı

1. Qurbanova Ə. Elektron tibbə dair terminologiyanın formalaşması problemləri. "Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı, Bakı, 24 may 2016-cı il.
2. Məmmədova M., Cəbrayılova Z. Elektron tibb: formalaşması və elmi-nəzəri problemləri. Bakı, 2019.
3. Грибунов Ю.П., Перов Ю.Л. и др. Морфологические и организационные аспекты использования телепатологии. М. 2006. 86 с.
4. https://e-qanun.az/framework/27519

Натаван Гусейнова

Формирование электронной медицинской терминологии в азербайджанском языке

Резюме

В статье исследуются особенности развития терминологической системы, формирующейся в результате применения информационно-коммуникационных технологий в сфере здравоохранения. Анализируются содержание, этапы формирования и взаимосвязь терминов «телемедицина», «электронное здравоохранение» и «электронная медицина», возникших в процессе информатизации и цифровой трансформации здравоохранения. Рассматривается первоначальная связь понятия «телемедицина» с дистанционными медицинскими консультациями и диагностикой, а также его последующее функциональное и содержательное расширение в связи с развитием информационно-коммуникационных

технологий. В статье также рассматриваются современное состояние терминологической базы, связанной с электронным здравоохранением и электронной медициной в азербайджанском языке, а также необходимость систематизации и стандартизации соответствующих терминов. Результаты исследования показывают, что непрерывное развитие информационно-коммуникационных технологий в сфере здравоохранения обусловливает динамичный характер терминологической системы данной области и её постоянное обогащение новыми терминологическими единицами.

***Ключевые слова*:** информационно-коммуникационные технологии, здравоохранение, телемедицина, электронное здравоохранение, электронная медицина, терминология.

Natavan Huseynova

Formation of electronic medical terminology in the Azerbaijani language

Abstract

The article examines the development of the terminological system formed as a result of the application of information and communication technologies in healthcare. It analyzes the content, stages of formation, and interrelationship of the terms “telemedicine,” “e-health,” and “e-medicine,” which have emerged in the process of healthcare informatization and digital transformation. The study considers the initial association of the concept of telemedicine with remote medical consultation and diagnosis, as well as its subsequent functional and conceptual expansion resulting from the development of information and communication technologies. The article also examines the current state of the terminological base related to e-health and e-medicine in the Azerbaijani language, as well as the need for the systematization and standardization of relevant terms. The findings demonstrate that the continuous development of information and communication technologies in healthcare contributes to the dynamic nature of the terminology in this field and its constant enrichment with new terminological units.

***Keywords*:** information and communication technologies, healthcare, telemedicine, e-health, e-medicine, terminology.

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***dosent S.Quliyeva***
fil.ü.f.d. A.Hüseynova-Qəhrəmanlı